# II Bayəzid Dövründə Osmanlı İmperatorluğu



Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

***II Bayəzid və ya Sultan Bayəzid-i Vəli Osmanlı imperiyasının 8-ci padşahıdı. Atası Fateh Sultan II Mehmed (1444-1446) (1451-1481), anası Sitti-Mükrimə Xatundur.***

***Fateh Sultan II Mehmedin Bəyazid, Mustafa və Cem adlarında üç oğlu və birinin adı Cövhər Sultan,o birinin adı Ayişə Sultan,o birinin adı bilinməyən üç qızı olmuşdur.Özündən sonra taxta çıxan Sultan II Bayəzid Mükrimə xatundan, şahzadə Mustafa Gülşah xatundan, Cem isə Çiçək xatundan doğulmuşdular.***

***Şahzadə Mustafa Fateh Sultan II Mehmed sağikən ölmüşdü.Cövhər Sultan Ağqoyunlu hökmdarı Uzun Həsənin (1453-1478) oğlu Uğurlu Məhəmməd bəylə ailə qurmuşdu.***

***Fateh Sultan Mehmed xan 3 may 1481-ci ildə Kəbzə yaxınlığında öldüyü zaman şahzadə Bayəzid Amasiyada, şahzadə Cem isə Konyada idilər. Vəlihədlik II Bayəziddə idi.***

II Bayəzid 4 min əsgəri ilə Cemdən əvvəl İstanbula gəlib taxta oturdu.Yeniçərilərə bir xeyli ödənc vermək məcburiyyətində qaldı.Bol bəxşiş payladı,aylıqlarını artırdı,İshaq Paşanı sədrəzəmliyə baş vəzirliyə gətirdi.Bundan başqa dönmə olmayanların iqtidara (baş vəzirliyə) gətirilməyəcəyinə söz verdi.Həqiqətdə daha sonra bu sözünün üstündə durmayacaqdı, amma bununla yeniçərilərin bəyənmədikləri vəzirlər üçün "istəmirik" deyə üsyan etmə ənənəsinin əsasını qoyurdu.Bayəzid taxta çıxmasının səhəri günü atasının dəfn mərasimini keçirdi.

Anadoluda şahzadə Cemi müdafiə edənlər çoxdu.Onun üçün Cem geciksə də Bursaya gəldi və bu qədim taxt şəhərində padşahlığını elan etdi. Adına xütbə oxutdurdu və pul kəsdirdi.

***Taxt ortaq qəbul etmədiyi üçün iki qardaş arasında çəkişmə,döyüş qaçılmaz hala gəlmişdi.II Bayəzid 20 min nəfərlik bir qüvvəylə qardaşının üstünə yürüş etmikdəydi.Bu qüvvələrin başında Otrantodan dönən Gədik Əhməd Paşa dururdu.(Beləliklə İtaliyanın fəthindən də əl çəkmiş olurdu.) Cemın yanındakı döyüşçülərin sayı 4 mindən artıq deyildi. Döyüşdə qalib gələ biməzdi.Ona görə bir elçi göndərərək dövlətin ikisi arasında bölünməsini itədi. II Bayəzid 'Dövlət mülkü bölünməz" cavabını verdi və yürüşü davam etdirdi.Çarəsiz müqavimət göstərən Cem məğlub olaraq qaçmağa məcbur oldu.Yaralı bir vəziyyətdə güclə Konyaya gələ bildi.***

Cem Sultan artıq Anadoluda dura bilməyəcəyini də anlamışdı.Ailəsi ilə birlikdə Misirə gedərək Məmlük sultanı Kayıtbaya sığındı. Kayıtbəy və Misir xalqı Fateh Sultan II Mehmedin kiçik oğlunu böyük təntənə və şənlik düzəldərək qarşıladı. Kayıtbay onu " sən mənim oğlumsan,qəm yemə " deyə qucaqladı.

Cem Sultan Qahirədə ona ayrılan sarayda altı aya qədər qaldı.Bu arada Həccə gedib qayıtdı. Osmanoğulları arasında başqa hacı olanı yoxdu.

Qahirədə Cem Sultana göstərilən etibar günbəgün azalırdı. O, Karamanoğullarından Qasım bəyin təhriki ilə təkrar Anadoluya döndü.Az bir güclə Konyanı mühasirəyə aldı,amma şəhər təslim olmadı.Ankaranı zəbt etmək üçün göndərdiyi keçmiş Sancaqbəyi də uğur qazanmadı. Sultan Bayazidin ordusu ilə üstün gəlməsi xəbərini alınca Taşeli tərəflərə çəkildi.

Bundan sonra Sonra Sultan II Bayəzid qardaşına xəbər göndərərək Qüdsə getməsini, ona göndəriləcək illik gəlirlə orada yaşamasını təklif etdi. O,təklifi qəbul etsəydi sonrakı həyatı bəlkə daha rahat keçə bilərdi.Cem Sultan böyük qardaşına inanmadı və Anadolunun ona verilməsini israr etdi.Bundan sonra da xristian cəngavərlərin başçısı Pierra d'Abussonun təkidli dəvətnaməsini qəbul edərək 29 iyul 1482-ci il tarixdə Rodos adasına gəldi.



Beləliklə, Cem Sultanın sıxıntılı dustaqlıq həyatı başlamışdı. Artıq xristian aləmi onu ölüncəyə qədər II Bayəzidə qarşı bir vasitəyə çevirəcək, Fransada qaladan- qalaya köçürəcək və Osmanlı sultanından sözdə Cemi ələ verməmək və sağlamlığını qorumaq üçün mütamadi pul istəyəcəkdilər.

Bu dustaqlıq dövründə yaxşı bir şair olan Cem Sultanla yenə yaxşı şair olan Sultan II Bayəzid arasında kövrək yazışmalar davam etdi.Başına gələn fəlakətdə böyük qardaşını günahkar bilən Cem Sultan yazışmaları davam etdirirdi.

***İllərdən bəri İtaliyada dustaq həyatı yaşayan Cem Sultan 25 fevral 1495-ci ildə Papa tərəfindən zəhərlədilərək öldürüldü.Ölüm xəbəri İstanbula çatdığı zaman böyük kədərə səbəb olmuş,ölkə daxilində 3 gün matəm saxlanmış, dualar oxunmuşdu.***

***Sultan II Bayəzid qardaşı Cem Sultanı məğlub edərək ölkədən kənara getmək məcburiyyətində qoyduqdan sonra Venetsiya ilə keçmiş barışıq müqaviləsini yeniləşdirmiş,Morova üzərinə yürüş edərək Rumelininin böyük şəhərlərini heç bir etirazla rastlaşmadan dolaşmış, Hersoq qraflığını qəti şəkildə Osmanlı torpaqlarına qatmışdı (1483).***

1484-cü ildə Boğdana səfər edən II Bayəzid bu səfərdə Dunay ağzındakı Kili qalasını zəbt etmişdi.Bundan sonra Bessarabiada çox mühüm bir yer olan Akkerman qalası mühasirəyə alınmışdı.Bu mühasirəyə Krım xanı Mengil Gəray da 50 min əsgərlə qoşulmuş və qala on yeddi gün sürən bir mühasirədən sonra fəth edilmişdi.

***Qaragöz Məhəməd Paşanın başçılığı altında türk qüvvələri Çuxurovaya girərək Adananı zəbt etdilər.Bu bölgədə olan Ramazan bəyliyinin hökmdarı Ramazanoğlu Mahmud bəy Osmanlılarla birləşdiyini elan etdi.Misir məmlükləri Zülqədir bəyliyinin torpaqlarına girdilər.Zülqədir bəyi II Bayəzidin qaynı idi.Kayseri sancaq bəyi Yaqub bəyin sərkərdəliyi ilə qüvvələr hərəkət edərək məmlükləri məğlub etdi və Zülqədir bəyliyindən çıxardılar.***

Osmanlı-Məmlük qarşıdurması böyük müharibəyə çevrilməkdəydi.Məmlüklər bacarıqlı sərkərdə Özbək bəyin başında durduğu bir qüvvəni döyüşə atdı.Məmlük qüvvələri ilə Osmanlı ordusu arasında müharibə bir neçə il sürdü.Axırda məmlüklər üstünlük qazanaraq Kayseri və Karamana qədər irəlilədilər.

Məğlubiyyətdən kədərlənən Sultan II Bayəzid ordusunu toplayıb böyük bir səfərə çıxmağa qərar verdi.Misir Məmlük sultanı Kayıtbay barışıq istədiyini bildirdi.Çuxurova məmlüklərdə, Zülqədir bəyliyinin osmalılarda qalması qəbul edildi.

Beləliklə, 1491-ci ildən 1495-ci ilə qədər fasilələrlə davam edən döyüşlər sona çatdı.Bir neçə ildən sonra(1498-ci ildə) Cem Sultanın qızı ilə yeni məmlük sultanı Nazir Məhəmmədin evlənməsi iki dövlət arasında barışığı möhkəmlədən bir hadisə sayıldı.

Sultan II Bayəzid dövrünün ən mühüm hadisələrindən biri türk döyüş donanmasının Aralıq dənizinin qərb sahillərində (İspaniya,Fransa,İtaliya,Tunis sahillərində) üstünlük qazanmağa,hakimiyyət qurmağa başlamasıdır.

***İspaniya ərazisindəki Əndəlüs İslam dövlətinə kömək məqsədi ilə Osmanlı dövləti bir donanma göndərərək İspaniyanı dayandırmaq istədi. Kamal Rəisin komandanlığı altında türk donanması qərbi Aralıq dənizinə çıxdı. İspaniya, Fransa, İtaliya,Tunis sahilləri bonbalandı.Türk donanması Malta, Cerba, Sicilya, Sardinya, Korsika, Balear adalarını vurdu.İspaniya limanlarına əsgər çıxararaq bu ölkəyə zərbələr endirdi. Döyüş gəmilərinə yerləşdirdiyi uzaq mənzilli toplarla Kamal Rəis dəniz savaşlarında yeni bir dövr açdı.***

Türk süvariləri İstriya yarımadasını altını üstünə çevirdilər.Macarlar böyük bir ordu ilə Triyesdən dönən süvarilərin önünü kəsdilər. Macarlar 8 min süvariyə qarşı 40 mindən çox bir güclə hücuma keçmişdi.

***Çox sürətli və çaşdırıcı manevrlərlə düşməni pərişan edən süvarilər bir neçə saat içində 6 minə qədər düşmən əsgərini qılıncdan keçirmiş,25 minini də əsir almışdılar. Düşmənin sayca üstünlüyü nəzərə alınsa bu inanılmaz bir qələbə idi.Avropa dövlətləri də heyrət içində qaldılar (9 sentyabr 1493-cü il). Nəticədən məmnun olan Sultan II Bayəzid Yaqub Paşanı Rumeli bəylərbəyi təyin etdi.***

***II Bayəzid taxta keçəndə 511.000 km2 i Asiyada,1.703.000 km2 Avropada olmaq üzrə,cəmi 2.214.000 km2 olan imperiya torpaqları ölümündə təxminən 2.375.000 km2 idi. Padşahlıq dövrü 22 may 1481-24 aprel 1512-ci illərdi.IIBayəzid dövrü Osmanlı imperiyasının güclənmə dövrlərindən biridir.Güclü idarəetmə qabiliyyəti sayəsində imperiyanı zirvəyə daşıya bilmişdi.***

